# Xocalı soyqırımı: Bəşər tarixinin ən qanlı və dəhşətli faciəsi



***Sübhan TALIBLI,***
***AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent***

Qarabağ tarixən Azərbaycan torpağı olmuşdur. 1918-ci ildə regional və beynəlxalq güclərin hərtərəfli dəstəyi ilə tarixi Azərbaycan torplarında yaradılan Ermənistan 1905, 1918, 1920, 1988-ci illərdən dəfələrlə türk-müsəlman xalqlarına qarşı soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirmiş, Azərbaycan torpaqlarında regional güclərin əli ilə məskunlaşdırma siyasəti həyata keçirmişdr.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərək azərbaycanlılara qarşı soyqırım etmişdir. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Faciədə 76-sı uşaq olmaqla, 487 nəfər yaralanmış, 1275 nəfər isə əsir götürülmüşdür. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Xocalı 1991-ci ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi olaraq vertolyot əlaqəsi qalmışdı. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması nəticəsində 41 nəfərin faciəli surətdə həlak olmasından sonra bu əlaqə tamamilə kəsilmiş, yanvarın 2-dən isə şəhərə elektrik enerjisi verilmirdi.

1992-ci ilin fevralında Azərbaycan kəndlərindən Malıbəyli, Qaradağlı və Ağdaban ermənilər tərəfindən işğal edilərək, onların əhalisi köçürülmüş və nəticədə 140 yaralı və 99 nəfər həlak olmuşdu. Ermənilər Xocalıya üç istiqamətdən hücum apardığından əhali Qarqar çayı istiqamətində meşələrə doğru qaçmağa məcbur olmuşdu. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən burada da xüsusi qəddarlıqla məhv edilmişdir.

Xocalıya hücumun iştirakçılarının ermənilərin “Artsaxın Milli Azadlıq Ordusu (AMAO)” və ermənilərin “qondarma Dağlıq Qarabağ Respublikası”nın Ali Sovetinin plenumunun qərarı ilə təyin olunan baş komandan və qərargah rəisinə tabe olan ərazi komandanlıqlarının tabeliyində olan dəstələrdən (bölüklərdən) ibarət olması qeyd olunur.

Allahverdi Bağırovun Xocalı soyqırımı zamanı həlak olanların meyitlərinin döyüş meydanından çıxarılmasında və azərbaycanlı əsirlərin erməni işğalçı əsgərlərin meyitləri və əsirləri ilə dəyişdirilərək azad edilməsində böyük xidməti olub. O, erməni polkovnik Vitali Balasyan vasitəsilə üç gün ərzində 1003 Xocalı əsirini ermənilərin əlindən xilas etmişdir. Allahverdi Bağırov erməni əsirləri avtobusla gətirib, sahiblərinə təhvil verdi. O, cəsədləri Ağdam məscidində, kəfənə tutdurub torpağa tapşırırdı, Ağdamın Qarağacı qəbiristanlığında Azərbaycan əsirləri təhvil aldı. Məhz Allahverdi Bağırovun Vitali Balasanyanla apardığı danışıqlar nəticəsində hərbi operator Seyidağa Mövsümlü və Cingiz Mustafayevin Xocalı hadisələrinin görüntülərini lentə alması mümkün olmuşdu.

Bağırovun döyüşçüləri həmin gün 85 şəhidin çıxarılmasında iştirak etmişdilər, sonradan Milli Qəhrəman adı alan Əlif Hacıyev və Aqil Quliyevin meyitləri də onların arasında idi. Həmin meyitləri artıq axşam Ağdam yaxınlığında iki yük maşınından boşaldan zaman orada olan Röytersin foto müxbiri Frederika Langen də çəkmişdi.. F.Langen özünün "The New York Times" qəzetinə verdiyi müsahibəsində gördüklərini bu cür təsvir edirdi: Birinci yük maşınında mən 35 cəsəd saydım, və göründüyü kimi ikincisində də təxminən o qədər var idi. Bəzilərinin başı kəsilmiş, çoxusu yandırılmış halda idi. Onların hamısı kişi idi və bəzilərinin əynində hərbi rəngdə forma var idi.

Ümumiyyətlə, bəşəriyyətin bu qanlı faciəsindən sonra Xocalı rayonundan olan 14577 nəfər məcburi köçkün Azərbaycanın 52 müxtəlif şəhər və rayonlarında müvəqqəti məskunlaşmışdır.

Xocalı döyüşündə iştirak etmiş Azərbaycanın Milli Qəhrəmanları - Ələsgər Novruzov, Əlif Hacıyev, Allahverdi Bağırov, Tofiq Huseynov, Aqil Quliyev, İnqilab İsmayılov və Fuzuli Rüstəmov yaddaşımızda əbədi yaşayacaqlar.

Xüsusilə ermənilər özləri Xocalıda törətdikləri qətliamlar və vəhşiliklər haqqında demişlər. Zori Balayan öz kitabını qardaşı və terrorçu Monte Melkonyana həsr etmiş Markar Melkonyan adlı erməni müəllifinin sözlərinə əsasən şəhər “strateji məqsəd idi, lakin bu həm də qisas aktı olmuşdur”. Müəllif “Arabo” və “Aramo” adlı iki erməni dəstəsinin silahlılarının rolunu xüsusilə vurğulayır və onların Xocalının dinc sakinlərini nə cür qəddarcasına öldürdüklərini təfərrüatlı təsvir edir. Belə ki, onun sözlərinə əsasən şəhərin bəzi sakinləri “[erməni] əsgərləri onları təqib edənədək” təxminən altı mil məsafə qət etdikdən sonra demək olar ki təhlükəni arxada qoymuşlar. Ardınca bildirir ki, “əsgərlər uzun müddət ombalarında gəzdirdikləri bıçaqlarını çıxardı və [onları] bıçaqlamağa başladılar”.

Digər erməni yazıçı-jurnalist David Xerdiyan Xocalıda ermənilərin Azərbaycanlıların başına gətirdikləri müsibətləri "Xaç uğrunda" kitabında fəxrlə xatırlayır. "Xaç uğrunda" kitabının 19-76-cı səhifələrində Xocalı soyqırımından yazır: Səhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstünə getmək istəmədim. Bunu görən podpolkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayın. Mən ayağımı 9-11 yaşlı qız meyidinin sinəsinə basıb addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi. Və mən beləcə 1200 meyidin üstündən keçdim. Martın 2-də "Qaflan" erməni qrupu (meyitləri yandırmaqla məşğul olurdu) 2000-ə yaxın alçaq monqolun (türklərin) cəsədlərini toplayıb ayrı-ayrı hissələrlə Xocalının 1 kmliyində yandırdı. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış təxminən 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda gördüm ki, o yavaş-yavaş nəfəs alır. Soyuq, aclıq və ağır yaralanmasına baxmayaraq, o hələ də sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini mən heç vaxt yaddan çıxarmayacam. Sonra Tiqranyan familiyalı bir əsgər onun qulaqlarından tutub artıq üzərinə mazut tökülmüş cəsədlərin içərisinə atdı. Daha sonra onları yandırdılar. Tonqaldan ağlamaq və imdad səsləri gəlirdi.



Erməni yazıçı-şair Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında 1992-ci ilin 26 fevralında Xocalıda törətdikləri soyqırım haqqında yazır: Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq.

Xocalı hadisələri ilə bağlı jurnalistin minlərlə adamın ölməsindən təəssüf keçirdib-keçirmədiyi barədə sualına Ermənistanının prezidenti Serj Sarkisyangn demişdir: Xocalıdan əvvəl azərbaycanlılar fikirləşirdilər ki, onlar bizimlə zarafat edirlər, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıra bilməz. Biz bu [stereotipi] qıra bildik. Və budur baş verənlər. ..Mən heç bir təəssüf keçirmirəm... hətta minlərlə əhali ölərsə bu cür sərt gedişlər zəruridir.

Qeyd edək ki, Ermənistanda Xocalı soyqırımı faktını azsaylı ermənilərdən hüquq müdafiəçisi Mikael Danielyanı və jurnalist Vahe Avetyanz tanımışlar.

2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı soyqırımı haqqında qeyd etmişdir ki: Xocalı faciəsi iki yüz ilə yaxın bir müddət ərzində erməni millətçilərinin və onların havadarlarının xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsi idi.

Hazırda Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycandan başqa, Xocalını tam səviyyədə qətliam kimi Pakistan və Sudan tanımışdır. 20 noyabr 2012-ci il tarixində Cibutidə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətləri soyqırım kimi tanıyan qətnamə qəbul edilmişdir. 2012-ci ilində Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı şəhərində mülki əhaliyə qarşı törədilmiş Soyqırımı pisləyən qətnamə qəbul edilmişdir.

...XX əsrdə Ermənilər və onları dəstəkləyən qüvvələr tərəfindən Azərbaycan xalqına qarşı 1905, 1918, 1920, 1948-1953, 1988-ci ildən törədilmiş bütün etnik təmizləmə və soyqırımlar, köçürülmə siyasi və s. kimi Xocalı faciəsinin də dünyaya çatdırılması bugün ən əhəmiyyətli məsələlərdəndir. Xocalı soyqırımını beynəlxalq aləmdə daha da sistemli şəkildə təbliğ etmək üçün bir sıra məsələlər həll edilməlidir. Elmi sahədə çalışan hər kəs, tarixçi, siyasətçi, filosof, filoloq, arxeoloq, etnoqraf, həmçinin milli təhlükəsizlik və ordu, mətbuat, diaspor və sair sahələrdə araşdırma aparan tədqiqatçılar Xocalı soyqırımı ilə bağlı xarici KİV-lərdə, elm və təhsil mərkəzlərində çıxışlar etməli, xarici dillərdə məqalələr dərc etdirməlidirlər. Azərbaycanda və xaricdə fəaliyyət göstərən bütün siyasi partiya və diaspor təşkilatlarımız beynəlxalq aləmdə öz fəaliyyətlərində Xocalı soyqırımının təbliği sahəsində xüsusi fəallıq göstərməlidirlər. Dünyanın aparıcı universitetləri, elmi tədqiqat və araşdırma mərkəzləri ilə əməkdaşlıq edib, Xocalı soyqırımı haqqında birgə kitab, məqalələr yazmalı, “dəyirmi masa”lar, layihələr həyata keçirməliyik. Görüləcək işlər çoxdur. İnanırıq ki, dövlətimizin uğurlu siyasəti nəticəsində qarşıya qoyulan hər bir hədəf gerçəkliyə çevriləcək, ən əsası illərdir azərbaycanlılara və türklərə qarşı soyqırımı və deportasiya siyasəti həyata keçirən ermənilər cinayətkar əməllərinə görə beynəlxalq məhkəmədə cavab vercəklər.

Müzəffər və rəşadətli ordumuzun əldə etdiyi Qarabağ Zəfəri nəticəsində Xocalı rayonunun bir neçə kəndi də düşmən işğalından azad edilib. Hər birimizin qalib ordunun əsgəri olmağımız şərəfdir, qürurdur, qeyrətdir. Bizlər qədimdən bugünə kimi dövlətçiliyimiz və torpaqlarımızı şəhidlərimizin və qazilərimizin qanı və canı bahasına əldə etmişik. Bu gün bütün Xocalı şəhidlərinin, o cümlədən Allahverdi Bağırovun, Əlif Hacıyevin, Ələsgər Novruzovun, Tofiq Hüseynovun, Aqil Quliyevin, İnqilab İsmayılovun, Füzuli Rüstəmovun və s. adlarını çəkmədiyimiz neçə-neçə şəhidlərimizin ruhları şaddır. Allah bütün şəhidlərimizə rəhmət eləsin. İnanırıq ki, Ali Baş Komandanın səyi nəticəsində Qarabağ tarixi ad-sanını özünə qaytaracaq və dünyada strateji, iqtisadi, mədəni-mənəvi əhəmiyyəti daha artacaqdır.

***2022***